İşıqlı sabahlar üçün, parlaq bir gələcək üçün, çiçəklənən millət üçün, səsi dünyaya yayılacaq bir gənclik üçün, düşünərək yaşayanlar üçün, xoşbəxt bir ailə üçün, sevincli qəlblər üçün, gülən üzlər üçün, həyat səhifələrimizi parlaq imza sahiblərinin qələmi ilə yazmaq üçün

parlaq imzalar

Kitabın sahibi: ______________________________

Oxu tarixi: ______________________________

Ürək ver: ♡ ♡ ♡ ♡ ♡

# İNSANI YAŞADAN NƏDİR?

(hekayələr)

LEV TOLSTOY

Rus dilindən tərcümə:

Zahid Sarıtorpaq
Saday Budaqlı

parlaq
İMZALAR

| | |
|---|---|
| Baş redaktor: | Toğrul MUSAYEV |
| Redaktorlar: | Azad YAŞAR<br>İlahə ƏHMƏDOVA |
| Korrektor: | Turac ELDARQIZI |
| Tərtibatçı: | İsmayıl SÜLEYMANLI |
| Art-direktor: | Ramin HƏSƏNƏLİZADƏ |
| Cildin dizayneri: | Bayram QAFAROV |

**Лев Николаевич Толстой**
**ЧЕМ ЛЮДИ ЖИВЫ?** *(рассказы)*

**Lev Nikolayeviç Tolstoy**
**İNSANI YAŞADAN NƏDİR?** *(hekayələr)*

Bakı, "Parlaq İmzalar" Nəşriyyatı – 2026, 192 səh. / IV nəşr

**© Лев Николаевич Толстой / 1872-1911**
**© Parlaq İmzalar MMC / 2021**
Kitabın bütün hüquqları qorunur. İcazəsiz olaraq hər hansı vasitə ilə nəşri və yayımlanması qadağandır.

Parlaq İmzalar Nəşriyyatı | 108
Klassiklər seriyası | 17

ISBN 9952580976
9789952580976

www.parlaqimzalar.az
info@parlaqimzalar.az
/parlaqimzalar
0559697259 / 0559897259

16+

Mətbəə: "AVE PRİNT" MMC
FEVRAL / 2026

**Lev Tolstoy** 1828-ci il sentyabrın 9-da Rusiyanın Tula quberniyasının Yasnaya Polyana malikanəsində anadan olub. Uşaq yaşlarında öncə anasını, daha sonra atasını itirib. 1844-cü ildə Kazan Universitetinə daxil olaraq Şərq dilləri üzrə təhsil almağa başlayıb, lakin ikinci kursda təhsilini yarımçıq qoyaraq doğma kəndinə qayıdıb.
1863-69-cu illərdə ilk irihəcmli romanını – "Hərb və sülh"ü yazıb. 1873-77-ci illərdə isə bir qadının faciəvi taleyindən bəhs edən "Anna Karenina" romanı üzərində çalışıb. Sonuncu böyük romanı "Dirilmə" isə 1899-cu ildə çap olunub. Tolstoy "İvan İliçin ölümü" əsərini 1886-cı ildə qələmə alıb. Böyük yazıçının sonuncu romanı "Hacı Murad" isə 1912-ci ildə, ölümündən sonra çap olunub.
Lev Tolstoy 1910-cu il noyabrın 20-də "Astapova" stansiyasında pnevmoniyadan dünyasını dəyişib.

**Zahid Sarıtorpaq** 1957-ci il mayın 11-də Şamaxı şəhərində anadan olub. 1981-87-ci illərdə Moskvada M. Qorki adına Ədəbiyyat İnstitutunda təhsil alıb. "Üfürülmüş çırağın ruhu", "Tək işığın haləsi" şeirlər kitabının və "Əlifba bayramında qətl", "Dərdin sarı çəpkəni", "Kül", "Qarğa marşrutu", "Quşların intiharına ağlamayın", "Köhnə mücrüyə elegiya" romanlarının müəllifidir.
Zahid Sarıtorpaq ingilis klassiki Con Miltonun "İtirilmiş cənnət" və "Qaytarılmış cənnət" epopeyalarını, Artur Rembonun, Fransua Moriakın seçilmiş əsərlərini tərcümə edib. Bundan əlavə, Qöte, V. Skott, C. Coys, M. Prust, C. Steynbek, B. Pasternak və bir sıra başqa dahilərin əsərlərindən nümunələr onun tərcüməsində Azərbaycan dilində işıq üzü görüb.

# Mündəricat

İNSANA NƏ QƏDƏR TORPAQ LAZIMDIR? 9

İNSANI YAŞADAN NƏDİR? 33

İKİ QOCA 67

TANRI HƏR ŞEYİ GÖRÜR,
AMMA SƏBRİ BÖYÜKDÜR 99

İLYAS 113

İLAHİ VƏ İNSANİ 123

ŞEYTANIN HİYLƏSİ,
TANRININ MƏRHƏMƏTİ 173

BİLMƏDƏN 179

# İNSANA
# NƏ QƏDƏR TORPAQ
# LAZIMDIR?

# I

Şəhərdə yaşayan böyük bacı özündən kiçiyin yanına – kəndə gəlmişdi. Böyük bacı şəhərdə bir tacirə, kiçik bacı isə öz kəndçisinə ərə getmişdi. İki bacı oturub çay içir, söhbətləşirdilər. Böyük bacı öz şəhər həyatını tərifləyib lovğalanmağa başladı. Orada necə sərbəst və gözəl yaşadığından, gəzib-dolandığından söz açdı, uşaqları necə geyindirib-bəzəməsindən, yediyi şirniyyatlardan və içkilərdən, xizək sürməsindən, səyahətlərə çıxmasından, teatrlara getməsindən danışdı.

Bunlar kiçik bacının qüruruna toxundu və tacir həyatını aşağılayıb, öz kəndli güzəranını tərifləyib ucaltmağa başladı və dedi:

– Şəxsən mən öz həyatımı səninkinə dəyişmərəm. Burda cah-calalsız yaşasaq da, heç bir qorxu-hürkümüz yoxdur. Siz yaxşı yaşasanız da, bir gün qazanır, bir gün də itirirsiniz. Məsəl var, deyərlər: şər – xeyrin bö-

yük qardaşıdır. Bəzən də belə olur: bugünkü varlı günü sabah dilənçiyə çevrilir. Bizim kənd həyatı isə daha etibarlıdır: kəndlinin ömrü uzun olmasa da, canı qıvraqdır, qazancı çox deyil, amma qarnı həmişə toxdur.

Böyük bacı da öz sözünü dedi:

– Toxluğa bax bir! Donuzla, buzovla əlləşmək doyurur, yəqin, sizi! Nə ziynətiniz var, nə xərcliyiniz! Ərin nə qədər çırpınıb-çapalasa da, siz də, uşaqlarınız da elə bir peyin-püyünlə əlləşərək ölüb gedəcəksiniz.

Kiçik bacı dedi:

– Nə olsun ki?! İşimizin adı budur. Əvəzində istədiyimiz kimi yaşayırıq, heç kimə əyilmir, heç kəsdən də qorxmuruq. Siz isə şəhərdə yolunuzu azaraq ömür sürürsünüz: bu gün safsan, sabah isə çirkaba bulaşırsan. Bir də gördün, sənin ərini kimsə qumara, ya da şəraba dadandırıb, başdan çıxartdı, hər şey bir anda puç olub getdi. Belə şeylər az olur yəni?!

Sobanın üstündə uzanmış ev yiyəsi Paxom arvadların söhbətlərini eşidirdi.

– Bunlar həqiqətdir, doğrudur, – deyirdi. – Bizim qohum-qardaş elə ağılları kəsəndən bəri torpağın altını üstünə çevirməklə məşğuldurlar, ağıllarına başqa bir fikir gəlməz. Bizim tək dərdimiz də odur ki, torpağımız azdır! Əgər çox olsaydı, mən indi heç kimdən, heç iblisdən də qorxmazdım!

Arvadlar çay içə-içə geyim-kecimdən də söz açdılar, qab-qacağı yığışdırıb, yatmaq üçün uzandılar.

İblis isə sobanın arxasında oturub, bütün söhbətə qulaq asırdı. Sevindi ki, kəndlinin arvadı ərini öz tərifləriylə elə bir lovğalıq həddinə çatdırdı ki, kişi – torpa-

ğı çox olarsa – heç iblisdən də qorxmayacağını ağlından keçirdi.

"Yaxşı, – düşündü iblis, – buna hələ baxarıq. Mən sənə istədiyin qədər torpaq verəcəm. Səni verdiyim o torpaqla da ələ alacam".

## II

Kəndlilərlə yanaşı, o kənddə bir varlı xanım da yaşayırdı. Onun yüz iyirmi desyatin[1] torpağı vardı. Əvvəlcə kəndlilərlə yaxşı yola gedirdi, heç kimi incitmirdi. Sonradan mülkiyyətini idarə etsin deyə, o, istefaya çıxan bir əsgəri işə götürdü və o, kəndliləri cərimələməyə başladı. Paxom bir az ehtiyatsızlıq edən kimi at çovdarlığa təpilir, inək bağ-bağçanı sümürür, danalar isə yaşıl biçənəkliyə soxulurdu. O isə bütün bunlara görə cərimələnirdi.

Paxom cərimələri ödəyir, hirsini evdəkiləri söyüb-döyməklə soyudurdu. O, yay uzunu bu darğanın üzündən bir xeyli ziyana düşmüşdü. Yem ehtiyatına heyifi gəlsə də, indi mal-qarası həyətdən çölə çıxmayanda sevinirdi, çünki hər cür qorxu-hürküdən uzaq olduğunu bilib, arxayınlaşırdı.

Qışda bir xəbər dolaşdı ki, xanım torpaqlarını satır və hansısa bir dalandar böyük yoldan bəridəki sahələri almağa razılaşıb. Kəndlilər bunu eşidəndə dilxor olub, təəssüf etdilər. Düşündülər ki, "dalandar torpaqları satın alsa, cərimələrlə onları bu xanımdan daha betər bezdirəcək. Kəndlilər isə bu torpaqlarsız yaşaya bilməzdilər, hamısı ona bağlı idi". Hamılıqla xa-

1. Desyatin – 1,092 hektara bərabər torpaq sahəsi – Tərc.

nımın yanına gedib, torpaqları dalandara deyil, onlara satmağı xahiş elədilər. Söz verdilər ki, ondan çox pul ödəyəcəklər. Xanım razılaşdı. Kəndlilər elliklə razılığa gəldilər ki, torpaqların hamısını satın alsınlar. Bununla bağlı bir-iki dəfə bir yerə yığışsalar da, ortaq dil tapmadılar. Aralarına iblis girdiyinə görə heç cür razılığa gələ bilmədilər. Belə qərar alındı ki, birlikdə yox, ayrı-ayrılıqda və kimin nəyə gücü çatırsa, o qədər sahə alsın. Xanım bununla da razılaşdı. Paxom qonşusunun iyirmi desyatin torpaq aldığını və ödəyəcəyi pulun yarısını hissələrlə verəcəyini xanımla razılaşdığını eşitdi. Paxıllığı tutdu. Düşündü ki, "bunlar bütün torpaqları alacaqlar, mənə heç nə qalmayacaq". Arvadıyla məsləhətləşməyə başladı:

– Camaat alır, – dedi. – Biz də gərək on desyatin alaq. Yoxsa günümüz qara gələcək. Cərimələr boğaza yığıb məni.

Fikirləşdilər ki, bəs necə alsınlar. Yüz rublları vardı; dayçanı, arıların yarısını satmışdılar, oğullarını da işə qoymuşdular, bacanaqdan borc almaqla, pulun yarısını beləcə düzəltmişdilər.

Paxom pulu yığdı, torpağı seçib-sonalayıb bəyəndi, meşəlik ərazidən on beş desyatin torpaq almaq qərarına gəldi və xanımla sövdələşməyə getdi. On beş desyatin torpağın qiymətini öldürüb ucuz qiymətə aldı və behini verdi. Şəhərə gedib, mülkiyyət kağızını alandan sonra pulun yarısını ödədi, qalanını isə iki ilə verməyi öhdəsinə götürdü.

Beləliklə, Paxom bir torpaq sahibi oldu. Borca toxum alıb əkin sahələrinə səpdi, yaxşı da məhsul yığdı.

Bir ildə həm xanıma, həm də bacanağına olan borcunu ödəyib qurtardı. Paxom mülkədara çevrildi. Öz torpaqlarını əkib-becərdi, orada ot biçdi, ağaclardan payalar düzəltdi, mal-qarasını otardı. Bir vaxtlar, indi daimi özünə məxsus olan bu torpaqları şumlamağa və ya cücərən tarlalara, biçənəklərə baxmağa gələndə, sən deyən, fərəhlənməzdi. Ona elə gələrdi ki, torpaqlarda otlar tamam ayrı cür göyərir, güllər tamam başqa cür açılır. Vaxtilə buralardan keçəndə torpaqda heç bir dəyişiklik hiss eləməzdi, özlüyündə "nə olasıdır, – deyərdi, – adi torpaqdır da". İndi isə elə bil torpaq tamamilə dəyişib, ayrı cür olmuşdu gözündə.

## III

Paxom sevinc içində yaşayırdı. Hər şey yaxşı olmalıydı, amma kəndlilər onun taxıllığında və biçənəklərində gününü göy əskiyə düyürdülər. Nə qədər dil-ağız eləsə də, bunun qabağını ala bilmirdi: gah çobanlar biçənəyə mal-qara salır, gah da gecələr atları taxıllığa buraxırdılar. Paxom hər dəfə onları özü qovub-çıxarır, sahiblərinin günahından keçir, heç kəsi qınamırdı. Sonra lap boğaza yığıldı, qəza mərkəzinə şikayət etməyə başladı. Anlayırdı ki, kəndlilər bunu bilərəkdən deyil, öz sahələri az olduğuna görə edirlər. Bununla yanaşı, düşünürdü ki, bunları "cəzasız qoymaq olmaz, yoxsa hər şeyi tələf edərlər. Onların mütləq dərsini vermək lazımdır".

Məhkəmə yolu ilə gah birini, gah digərini cəzalandırırdı, gah birini, gah da digərini cərimələtdirirdi. Kəndlilər Paxoma aşkar kin bəsləməyə başlamışdılar;

artıq bilərəkdən əkin-biçininə mal-qara salırdılar. Kimsə gecə ona aid meşəliyə girmiş, qabığından həsir hörmək üçün onlarla cökə ağacını doğramışdı. Paxom meşədən keçəndə gördü ki, pöhrələr böyrü üstə aşıb, kəsilmiş kötüklər ağarır. Heç olmasa, kolluq tərəfdəkiləri kəsib, bircəciyini saxlasaydı, yenə dözmək olardı, zalımoğlu hamısını ucdantutma doğrayıb yıxmışdı yerə. Paxom qəzəbləndi: “Kaş biləydim də bunu kim eləyib, ondan heyfimi özüm alardım”, – dedi. Fikirləşdi, fikirləşdi ki, bu kim ola bilər axı? “Syomkadan başqa heç kim” qənaətinə gəldi, çünki onunla təzəcə dalaşmışdılar. Getdi onu axtarmağa, amma tapa bilmədi. Paxomun şübhəsi daha da artdı ki, bunu məhz Semyon eləyib. Ərizə ilə şikayət elədi. Məhkəməyə çağırdılar. Uzun-uzadı mühakimə etdilər, dəlil-sübut yetərsizliyindən Semyon bəraət aldı. Paxom daha da qəzəbləndi, həm kəndxuda, həm də hakimlə ağızlaşdı.

– Siz oğruya əl tutursunuz, – dedi. – Öz başınıza gəlsəydi, oğruları belə himayə etməzdiniz.

Paxom hakimlə də, qonşularla da dalaşdı. Onu biçənəklərini yandırmaqla hədələdilər. Torpaqları geniş olsa da, dünya-aləm başına daraldı.

Bu zaman xəbər yayıldı ki, camaat təzə yerlərə köçür. Paxom fikirləşdi: “Torpağımı tərk eləmək üçün heç bir əsasım yoxdur. Gedənlər qoy getsin, mağıl yerimiz daha da genişlənər. Onların yerini özümə götürərəm, ərazimi genişləndirərəm, dolanışığımız bir az da yaxşılaşar. Yoxsa sıxlıqdır”.

Bir dəfə Paxom evdə oturmuşdu, yoldan keçən bir kəndli onlara təşrif buyurdu. Gecələmək üçün onu

evə buraxdılar. Yedirib-içirdilər, söhbət vaxtı soruşdular ki, bu Tanrı qonağı haradan gəlib, haraya gedir belə? Kəndli dedi ki, Volqanın o tərəfindən – aşağılardan gəlir, orada işləyirmiş. Söz sözü gətirdi, kəndli oralara camaatın necə köçüb yerləşməsindən danışdı. Dedi ki, onların camaatı həmin yerlərdə məskunlaşıb, oradakı icmaya da yazılıblar, adambaşına da on desyatin torpaq ayrılıb.

– Torpaq da elədir ki, nə əksən, bar verir, – dedi, – çovdar zəmisinə girən atı görmək olmur. Sıxlığı da öz yerində, beş ovuc dən səpəndə bir tay məhsul götürürsən. Bir kəndli vardı, yoxsulun, kasıbın biriydi, əliyalın köçüb gəlmişdi, indi altı atı var, iki inəyi.

Paxomun canını həsəd alovu bürüdü. "Yaxşı yaşamaq mümkün olduğu halda, mən niyə bu darısqallıqda kasıbçılıq çəkməliyəm?! – deyə düşündü. – Burdakı torpaqlarımı, həyət-bacamı sataram, orda həmin pula məskunlaşar, özüm üçün iş quraram. Burda, bu darısqallıqda günahdan başqa heç bir qazanc yoxdur. Ancaq köçüb-getməyin bütün yolunu özüm tapmalıyam".

Yaya qədər yır-yığış eləyib getdi. Volqa çayı ilə üzüaşağı Samaraya qədər gəmi ilə üzdü, dörd yüz verst[1] də piyada getdi. Deyilən yerə çatdı. Hər şey deyildiyi kimi idi. Kəndlilərin güzəranı yaxşıydı, adambaşına on desyatin torpaqları vardı, yeni gələnləri də icmaya həvəslə qəbul edirdilər. Kimin pulu varsa, ayrılmış pay torpağından əlavə, özü üçün həmişəlik nə qədər istəyir sahə ala bilirdi. Özü də üç rubla!

---

1. Verst – 1,06 kilometrə bərabər rus uzunluq ölçüsü – Red.